BNA

Bakı Nəqliyyat Agentliyi

# Bakı Nəqliyyat Agentliyi tərəfindən keçirilən 19 nömrəli müntəzəm marşrut üzrə sərnişindaşıma hüququna dair müsabiqənin sənədlər

# TOPLUSU

Bakı 2018

## MÜNDƏRİCAT

1. Müsabiqə elanı........................................................................................................3-5

2. Müsabiqə iştirakçısı üçün təlimat ………………………………………………………..……………6-9

3. Müsabiqənin keçirilmə qaydaları

3.1 Müsabiqə təkliflərinin məzmunu..............................................................................................10-11
3.2 Müsabiqə təkliflərinin qiymətləndirilməsi və qalibin müəyyənləşdirilməsi.................................12-13
3.3 Müsabiqə sənədlərinin nümunələri...........................................................................................14-16

4. Bakı şəhərinin inzibati ərazisində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımanı yerinə yetirən avtobuslara, daşıyıcılara və avtobus sürücülərinə dair tələblər

4.1 Avtobuslara dair tələblər.............................................................................................................17-24

4.2 Daşıyıcılara dair tələblər.............................................................................................................25-26

4.3 Avtobus sürücülərinə dair tələblər...............................................................................................27-28

5. Sərnişindaşıma xidmətlərinin göstərilməsi haqqında müqavilə

5.1 Tərəflərin vəzifələri……………………………………………………………………..….29-31

5.2 Tərəflərin hüquq və məsuliyyəti ……………....………………………………………………..….32

5.3 Xüsusi şərtlər...................................................................................................................................33

5. Müsabiqəyə çıxarılan marşruta dair ümumi məlumatlar...........................................................34-38

# Müsabiqənin elanı

Bakı Nəqliyyat Agentliyi Bakı şəhərinin ərazisində fəaliyyət göstərəcək 19 nömrəli müntəzəm şəhərdaxili sərnişindaşıma marşrutu üzrə sərnişindaşıma hüququna dair müsabiqəni elan edir:

| Marşrutun nömrəsi və adı | Reysə başlamanın və reysin başa çatmasının vaxtı, hərəkət intervalı | Marşruta xidmət göstərilməsi üçün tələb olunan avtobusların minimal sayı | Marşruta xidmət göstərilməsi üçün tələb olunan avtobuslarınminimal tutumu, oturacaq yerlərinin sayı və digər tələblər | Yola düşmənin dövriliyi |
|---|---|---|---|---|
| 19 nömrəli marşrut | Əliyar Əliyev küç. - Neftçilər pr. 62 (Bakı Dəniz Vağzalı)<br><br>06:00-23:59<br><br>6 dəqiqə | 15 | Minimal tutum - 75,<br>Oturacaq yerlərinin sayı - 30-dan yuxarı<br><br>Böyük tutumlu | 12 |

**Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:**

1. Müsabiqədə iştirak etmək üçün müəyyən olunmuş formada yazılı ərizə;

2. İddiaçının tam adı, fərdi sahibkarlıq üçün şəxsiyyət vəsiqəsinin surəti. hüquqi şəxslərin üçün dövlət reyestrindən çıxarışın surəti, vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti

3. Müsabiqə sənədləri paketinin tərtib edilməsinə çəkilən xərclərin əvəzi olaraq haqqın ödənilməsinə dair bank sənədi.

Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə müsabiqə sənədləri paketinin tərtib edilməsinə çəkilən xərclərin əvəzi olan haqqı göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusu Bakı şəhəri Ziya Bünyadov 111 ünvanından (Əlaqələndirici şəxs: Vəliyev Natiq, telefon: 404-41-20 (daxili 2250)) ala bilərlər.

**İştirak haqqı- 500 manat**

**Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi**

**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab AZ 41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**
**Bakı Nəqliyyat Agentliyi**
**Hesab № AZ88CTRE00000000000008147701**
**VÖEN: 1503112971**
Büdcə təsnifatının kodu: **142340**
Büdcə səviyyəsinin kodu: **7**

Müsabiqə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi qaydasına" uyğun keçiriləcəkdir.

İddiaçılar müsabiqədə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 08.06.2018-ci il, saat 17:00-a qədər, müsabiqə təklifləri zərflərini isə 09.07.2018-ci il, saat 12:00-a qədər Bakı şəhəri Ziya Bünyadov 111, Bakı Nəqliyyat Agentliyinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Bakı Nəqliyyat Agentliyinin inzibati binasında 10.07.2018-ci il tarixində müsabiqə komissiyası tərəfindən açılacaqdır. İddiaçılar və onların notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində daşıyıcılara (sahibkarlara) aşağıdakı meyarlarına görə üstünlük veriləcəkdir:

- Müasir standartlara cavab verən istehsalat bazasına (qaraj) malik olması;

- İstehsalat bazalarının avtobus sayına müvafiq təmir zonalarına, inzibati binaya və parklanma ərazisinə malik olması;

- Yeni müasir avadanlıqlarla təhciz edilmiş nəqliyyat vasitələrinə (avtobuslara) malik olması;

- Sürücü bazası və müvafiq işçi heyətə malik olması.

# Müsabiqə iştirakçıları üçün təlimat

## 1. Müsabiqənin məqsədi

Müsabiqənin təşkilinin məqsədi müntəzəm sərnişin daşımalarında əhalinin tələbatının ödənilməsi, sərnişinlərə keyfiyyətli xidmət göstərilməsinin təmin edilməsi, azad sahibkarlıq və sağlam rəqabət mühitinin formalaşdırılması, nəqliyyat xidmətləri bazarının inkişaf etdirilməsi və bu sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi maraqlarından çıxış etməklə Bakı şəhərinin inzibati ərazisində yaradılmış 19 nömrəli müntəzəm şəhərdaxili marşrut üzrə sərnişindaşıma xidməti göstərəcək daşıyıcını müəyyən etməkdir.

## 2. Müsabiqə iştirakçılarının qanunauyğunluğu

2.1.Müsabiqədə mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişin daşınması fəaliyyətinin yerinə yetirilməsi üçün istehsalat-texniki bazası, avtobus parkı və işçi heyəti olan hüquqi şəxslər və fərdi sahibkarlar iştirak edə bilərlər.

2.2. Müsabiqə sənədləri toplusunun hazırlanması üçün Sifarişçi tərəfindən cəlb olunmuş mütəxəssislər, ekspertlər, məsləhətçilərlə müsabiqədə iştirak edən iştirakçılar və ya onların nümayəndələri arasında heç bir əlaqə olmamalıdır.

## 3. Müsabiqə sənədləri toplusunun (zərfin) tərtib edilməsinə çəkilən xərclərin əvəzi olaraq ödənilən haqq

3.1. Müsabiqə sənədləri toplusunu almaq və müsabiqədə iştirak etmək üçün iştirakçılar müsabiqə haqqında elanda qeyd olunmuş məbləğdə iştirak haqqı ödəməlidirlər.

3.2. İddiaçı öz təklifinin hazırlanması və təqdim edilməsi ilə əlaqədar bütün xərcləri çəkir. Sifarişçi müsabiqənin nəticəsindən asılı olmayaraq bu xərclərə görə heç bir öhdəlik götürmür.

## 4. Müsabiqə sənədləri toplusunun məzmunu

4.1. Müsabiqə sənədləri toplusunda, müsabiqənin keçirilməsi və müsabiqədə iştirak qaydaları və müqavilə şərtləri göstərilir. Müsabiqə barədə elandan başqa, Müsabiqə sənədləri toplusu aşağıdakılardan ibarət olmalıdır:

a) Müsabiqə iştirakçıları üçün təlimat;

b) Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası;

c) Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili marşrut üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi haqqında müqavilə forması və xüsusi şərtlər;

ç) Müsabiqə təkliflərinin forması və qiymətləndirmə cədvəlləri;

4.2. İddiaçı müsabiqə sənədləri toplusunun məzmununu, o cümlədən təlimatları formaları və şərtləri öyrənməlidir. Bu sənədlər və müsabiqə təklifi haqqında tam təsəvvürü, məlumatı olmayan müsabiqə sənədləri toplusunun tələblərinə uyğun gəlməyən təklif vermək iştirakçının müsabiqə təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

## 5. Müsabiqə iştirakçılarının ixtisaslarını təsdiq edən sənədlər

5.1. Müsabiqədə iştirak etmək istəyən İştirakçı aşağıdakı sənədləri müsabiqə komissiyasına təqdim etməlidir:
5.1.1. Müsabiqədə iştirak etmək üçün müəyyən olunmuş formada yazılı ərizə;
5.1.2. İddiaçının tam adı, fərdi sahibkarlıq üçün şəxsiyyət vəsiqəsinin, hüquqi şəxslər üçün nizamnaməsinin, vergi ödəyicisinin uçota alınması haqqında rekvizitlərin surəti.
5.1.3. Müsabiqə sənədləri paketinin tərtib edilməsinə çəkilən xərclərin əvəzi olaraq haqqın ödənilməsinə dair bank sənədi.
5.1.4. İxtisas məlumatlarının forması;
5.1.5. İştirakçılar haqqında məlumat.
5.2. Müsabiqəyə təqdim olunan sənədlər qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməlidir.

## 6. Müsabiqə toplusuna dair izahat

Müsabiqə sənədləri toplusu haqqında hər hansı izahatı, yaxud hər hansı sənədi aydınlaşdırmaq üçün İştirakçı Sifarişçiyə məktubla, faksla, telefonla müraciət edə və həmin müraciəti onun ünvanına göndərə bilər. Sifarişçi Müsabiqə sənədləri toplusunun aydınlaşdırılması ilə bağlı bütün sorğulara, müsabiqə təkliflərinin verilməsinin son müddətinə qədər və ya Müsabiqə sənədləri toplusunun məlumat xəritəsində göstərilmiş vaxtdan gec olmayaraq məktubla cavab verir. Sifarişçi hər bir sorğuya cavab məktubunun nüsxələrini 5 bank günü müddətində Müsabiqə sənədləri toplusunun almış bütün iştirakçılara məsələnin izahatı ilə birlikdə və onun mənbəyini göstərməmək şərti ilə göndərir.

## 7. Müsabiqə sənədləri toplusunda düzəlişlərin edilməsi

Müsabiqə təkliflərinin təqdim olunma müddəti başa çatana qədər Sifarişçi hər hansı bir vaxt, öz mülahizəsinə və yaxud İştirakçının sorğusuna verilmiş izahatla bağlı Müsabiqə sənədləri toplusunda əlavə və düzəlişlər edə bilər. Müsabiqə sənədləri toplusuna əlavə və düzəlişlər barədə bütün iştirakçılara dərhal məlumat verməlidir. İddiaçılar həmin əlavə və düzəlişləri öz müsabiqə təkliflərində nəzərə almalıdırlar.

## 8. Müsabiqə təklifinin dili

8.1. İddiaçının hazırladığı müsabiqə təklifi, həmçinin müsabiqə ilə əlaqədar bütün yazışmalar və sənədlər Müsabiqə barədə elanda göstərilən dildə tərtib edilməlidir. İddiaçının təqdim etdiyi müşayiətedici sənədlər başqa dildə tərtib edilə bilər, bu şərtlə ki, həmin sənədin bölmələr üzrə dəqiq tərcüməsi Azərbaycan dilində təqdim olunmalıdır. Müsabiqə təkliflərinin qiymətləndirilməsi zamanı, üstünlük tərcümə edilmiş nüsxəyə verilir.

## 9. Müsabiqə təklifinə əlavə edilən sənədlər

9.1. İddiaçının hazırladığı müsabiqə təklifi aşağıdakı göstərilən məlumatları özündə əks etdirməlidir:
a) bu Təlimatın 5.1.4 və 5.1.5-ci yarımbəndlərinə uyğun olaraq tərtib edilmiş ixtisas məlumatlarının forması və İştirakçı haqqında məlumat;
b) bu Təlimatın 5.1.1-5.1.3-cü yarımbəndlərinə uyğun olaraq İştirakçının müsabiqə təklifini vermək və müqavilə bağlamaq səlahiyyətinə malik olmasını təsdiq edən sənədlər;
c) İştirakçının təqdim etdiyi Müsabiqə təklifindəki məlumatları təsdiq edən digər sənədlər;

## 10. Müsabiqə təklifinin forması

10.1. Müsabiqə təklifində göstəriləcək sərnişindaşıma xidməti ilə bağlı məlumatlar əks olunmalıdır.
10.2. İddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir müsabiqə təklifi verə bilər.

## 11. Müsabiqə təklifinin hazırlanması, imzalanması, möhürlənməsi

11.1. İştirakçı bu Təlimatın 5.1.4 və 5.1.5-ci yarımbəndlərinə uyğun olaraq ixtisas məlumatlarının formasını və özü haqqında məlumatı müsabiqə komissiyası üzvlərinin sayına uyğun olaraq 6 nüsxədə Sifarişçiyə təqdim etməlidir.
11.2. İxtisas məlumatlarının forması və İştirakçı haqqında məlumat Sifarişçi tərəfindən ayrı-ayrılıqda iki kiçik zərfə qoyulur. Kiçik zərflərin hər birinə komissiya üzvlərinin sayına uyğun nüsxələr qoyulmalıdır.
11.3. Kiçik zərflərin hər ikisi Sifarişçi tərəfindən möhürlənir və onlar bir böyük zərfə yerləşdirilərək möhürlənir.
11.4. Hər üç zərfdə fərqləndirici nişanlar, qeydlər və iştirakçı haqqında məlumatlar olmamalıdır.
11.5. Böyük zərfin üzərində müsabiqə haqqında elanda qeyd olunmuş “17”mart 2017-cı il saat 11.00 tarixə qədər açılmamalıdır” sözləri yazılmalıdır.

**12. Müsabiqə təkliflərinin təqdim olunması üçün son müddət**

Müsabiqə təklifi Müsabiqə barədə elanda göstərilmiş gün və vaxtdan gec olmayaraq həmin elanda göstərilmiş ünvanda Sifarişçiyə təqdim olunmalıdır.

**13. Təyin olunmuş müddətdən sonra alınan müsabiqə təklifləri**

Bu Təlimatın 12-ci bəndində göstərilən təkliflərin verilmə müddəti bitdikdən sonra Sifarişçi daxil olan bütün müsabiqə təkliflərini baxılmadan İştirakçılara qaytarır.

**14. Müsabiqə təkliflərində dəyişiklik edilməsi və onların geri çağırılması**

14.1. İştirakçının müsabiqə təklifi Sifarişçi tərəfindən qeydiyyata alındıqdan sonra ona hər hansı bir əlavə və ya dəyişiklik edilə bilməz.
14.2. Müsabiqə təkliflərinin verilməsi müddəti bitənə qədər İştirakçı öz təklifini qaytara bilər.
14.3. İştirakçı müsabiqə təklifinin axırıncı verilmə tarixi ilə onun keçirilmə (zərflərin açılması) müddətinin başa çatması tarixi arasındakı vaxtda öz təklifini geri götürə bilməz.

**15. Müsabiqə zərflərinin açılması**

15.1. Sifarişçi Müsabiqə barədə elanda göstərilmiş ünvan, gün və vaxtda iştirakçıların nümayəndələrinin iştirakı ilə müsabiqə zərflərini açır. Müsabiqə zərflərinin açılışında iştirak edən iştirakçıların nümayəndələri qeydiyyatdan keçməli və özlərinin səlahiyyətli olduqlarını təsdiq edən etibarnamə təqdim etməlidirlər.
15.3. Sifarişçi müsabiqə təkliflərinin açılışını protokollaşdırır.

**"2. MÜSABİQƏNİN TƏŞKİLİ**

2.1. Müsabiqə şərtləri sifarişçi tərəfindən hazırlanır və elan olunduqdan sonra dəyişdirilə bilməz. Müsabiqənin keçirilməsinə 30 gün qalmış sifarişçi kütləvi informasiya vasitələrində bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun olaraq müsabiqənin keçirilməsi vaxtmı, yerini və müsabiqənin əsas şərtlərini elan edir.

2.2. Müsabiqədə mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, avtomobil nəqliyyatı ilə *müntəzəm* sərnişin daşınması fəaliyyətinin müvafiq növünün yerinə yetirilməsi üçün «Fərqlənmə nişanı» olan hüquqi şəxslər və fərdi sahibkarlar iştirak edə bilərlər.

2.3. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqə sənədləri paketinin əldə edilməsi üçün sifarişçiyə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada ərizə ilə müraciət etməli, müsabiqə sənədləri paketinin tərtib edilməsinə çəkilən xərclərin əvəzini ödəməli, müsabiqə şərtlərini Öyrənməli, müsabiqə təklifləri formasını doldurmalı, təsdiq etməli və sifarişçiyə təqdim etməlidirlər.

2.4. Müsabiqə sənədləri toplusuna aşağıdakılar daxildir:

2.4.1. müsabiqəyə çıxarılan marşrutların tələb və parametrləri haqqında məlumat;

2.4.3. bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq ixtisas məlumatları;

2.4.3. bu Qaydanın 4 nömrəli əlavəsinə uyğun olaraq iştirakçılar haqqında məlumatların formasının nümunəsi;

2.4.4. bu Qaydanın 5 nömrəli əlavəsinə uyğun olaraq müsabiqə təkliflərinin qiymətləndirilmə formasının nümunəsi;

2.4.5. bu Qaydanın 7 nömrəli əlavəsinə uyğun olaraq marşrut(lar) üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsinə dair müqavilənin nümunəsi;

2.4.6. sifarişçiyə müsabiqə təkliflərinin təqdim edilməsi üçün bir böyük və iki kiçik zərf.

2.5. İştirakçı müsabiqə təkliflərinin formasının və Özü haqqında məlumatı komissiya üzvlərinin sayına uyğun nüsxələrdə sifarişçiyə təqdim etməlidir.

Müsabiqə təkliflərinin forması və iştirakçı haqqında məlumat ayrı-ayrılıqda iki zərfə qoyulur, möhürlənir və onlar bir böyük. zərfə yerləşdirilərək möhürlənir. İştirakçı haqqında məlumatlar müsabiqə təkliflərinə daxil edilə bilməz. Hər üç zərfdə fərqləndirici nişanlar, qeydlər və iştirakçı haqqında məlumatlar olmamalıdır.

2.6. Təkliflərin təqdim edilməsi üçün müəyyən olunmuş müddətdən gec daxil olan təkliflərə baxılmır, müsabiqə sənədlərinin rəsmiləşdirilməsi qaydalarını pozmuş iddiaçılar isə müsabiqədə iştirak etməyə buraxılmırlar. Müəyyən olunmuş müddətdə və müsabiqə sənədlərinin rəsmiləşdirilməsi qaydalarına uyğun olaraq, təqdim olunmuş təkliflər müsabiqənin Sifarişçisi tərəfindən hər hansı istisnaya yol verilmədən qəbul edilməlidir.

2.7. İştirakçının müsabiqə təklifi Sifarişçi tərəfindən qeydiyyata alındıqdan sonra ona hər hansı bir əlavə və ya dəyişiklik edilə bilməz.

2.8. Müsabiqədə iştirak etmək üçün əvvəllər təqdim edilmiş və hər hansı lotu udmuş avtonəqliyyat vasitələri gələcəkdə başqa lot üzrə müsabiqədə iştirak etmək üçün təqdim edilə bilməz.

2.9. İştirakçı eyni avtobusu eyni vaxtda iki və daha artıq lot üzrə müsabiqəyə çıxara bilməz.

2.10. İştirakçılar və Sifarişçi təqdim edilən və istifadə olunan müsabiqə məlumatlarını məxfi saxlamalıdırlar.

2.11. İştirakçı tərəfindən təqdim edilmiş və Sifarişçi tərəfindən qeydiyyata alınmış təkliflər 60 gün ərzində qüvvədə qalır.

Müsabiqə komissiyası tərəfindən zərflərin açılması, müsabiqə təkliflərinə baxılması, onların qiymətləndirilməsi, habelə müsabiqə qalibinin müəyyənləşdirilməsi müsabiqə iştirakçılarının və ya onların səlahiyyətli nümayəndələrinin iştirakı ilə açıq həyata keçirilir.

2.12. Müsabiqə komissiyasının tərkibi *Sifarişçi* tərəfindən müəyyən olunur. Müsabiqə komissiyası üzvlərinin ümumi sayı tək rəqəmli olmalı və 5 nəfərdən az olmamalıdır.

2.13. Müsabiqədə iştirak etmək niyyətində olan daşıyıcı müsabiqə təkliflərini təqdim etməmişdən əvvəl müsabiqə sənədlərində nəzərdə tutulmuş hər hansı bir məsələnin aydınlaşdırılması ilə bağlı müsabiqənin keçirilməsinə ən azı 15 gün qalmış Sifarişçiyə müraciət edə bilər. Sifarişçi həmin müraciətləri 7 gün ərzində cavablandırmalıdır.

## 3. MÜSABİQƏ TƏKLİFLƏRİNİN MƏZMUNU

3.1. İştirakçının ixtisas məlumatları və iştirakçı haqqında məlumat bu Qaydanın 3 və 4 nömrəli əlavələrində təsbit edilmişdir.

3.2. Bu Qaydanın 3 nömrəli əlavəsinin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulmuş ixtisas məlumatları (avtonəqliyyat vasitələrinin texniki pasportları və avtonəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi, onların saxlanılması və təmiri üçün texniki-istehsalat bazasının mövcudluğunu təsdiq edən sənəd və ya müvafiq müqavilə) Sifarişçi tərəfindən müsabiqə keçirilməzdən əvvəl yoxlanılaraq müəyyən edilir.

## 4. MÜSABİQƏ TƏKLİFLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QALİBİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ QAYDASI

4.1. Zərflərin açılması, iştirakçıların müsabiqə təkliflərinə baxılması, təkliflərin qiymətləndirilməsi, həmçinin qalibin müəyyənləşdirilməsi müsabiqə komissiyası tərəfindən həyata keçirilir.

4.2. İçərisində müsabiqə təkliflərinin olduğu zərfin, habelə iştirakçı haqqında məlumatın olduğu zərfin möhürləndiyi böyük zərflər şəffaf olmayan qutuda olmalıdır.

4.3. Komissiyanın sədri qutuda olan böyük zərflərdən hər hansı birini çıxarıb, onun yuxarı sağ küncündə iri hərflərlə birinci sıra nömrəsini qoyur.

4.4. Bundan sonra sədr böyük zərfi açaraq, müsabiqə təkliflərinin olduğu zərfə, habelə müsabiqə iştirakçısı haqqında məlumatların olduğu zərfə birinci sıra nömrəsini qoyur.

4.5. Sonra sədr müsabiqə təkliflərinin olduğu böyük zərfi açır, təkliflərin hər bir nüsxəsində birinci sıra nömrəsini qoyur və onları komissiyanın hər bir üzvünə paylayır. İştirakçı haqqında məlumatın olduğu zərf böyük zərfdə açılmamış saxlanılır.

4.6. Müsabiqə təkliflərinin nüsxələrinə komissiyanın üzvləri tərəfindən baxılır. Onlar fərdi olaraq bu Qaydanın 5 nömrəli əlavəsində verilən göstəricilər üzrə müsabiqə təkliflərinin hər bir bəndini qiymətləndirirlər. Qiymət verərkən, komissiyanın üzvləri hər bir avtobus üçün bu Qaydanın 6 nömrəli əlavəsində göstərilən meyarları rəhbər tuturlar. Avtobusun salonunun və banının vəziyyəti, həmçinin müvafiq təchizatı komissiyanın üzvləri tərəfindən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin müvafiq qurumlarının keçirdiyi texniki müayinənin nəticələrinə dair müvafiq arayışa əsasən qiymətləndirilir.

4.7. Müsabiqə təklifləri baxıldıqdan və qiymətləndirildikdən sonra, 1 nömrəli böyük zərfə qoyulması üçün komissiyanın katibinə təhvil verilir.

4.8. Müsabiqə təkliflərinin olduğu zərflərə baxılması proseduru eyni qaydada müsabiqənin digər iştirakçıları üçün də keçirilməlidir.

4.9. Müsabiqə təkliflərinin olduğu bütün zərflərə baxıldıqdan və onlar müvafiq qaydada qiymətləndirildikdən sonra komissiyanın hər bir üzvü bu Qaydanın 5 nömrəli əlavəsinə uyğun olaraq qiymətləndirmənin nəticələrinin olduğu formanı təsdiqləyir və onu sədrə (katibə) təqdim edir.

4.10. Müsabiqə komissiyasının üzvləri təsdiqlənmiş formaya əsasən iştirakçının yekun balları eyni sıra nömrəsi ilə hesablanır və hər bir iştirakçının yekun balı müəyyən edilərək, komissiyanın katibi tərəfindən protokolda qeydiyyata alınır.

4.11. Ümumi yekun balların nəticələrinə əsasən komissiyanın katibi ən yüksək yekun bal toplamış iştirakçının sıra nömrəsini elan edir.

4.12. Komissiyanın sədri müsabiqə qalibinin elan olunmuş sıra nömrəsinə uyğun olaraq nömrəsi qalibin nömrəsinə uyğun olan böyük zərfi götürür, iştirakçı haqqında məlumatın olduğu zərfi çıxararaq onu açır və tanış olmaq üçün komissiyanın üzvlərinə paylayır.

4.13. Komissiya üzvləri iştirakçı haqqında məlumatlarla tanış olduqdan sonra ən yüksək bal toplamış iştirakçı haqqında məlumatlar sədr tərəfindən elan edilir və bu Qaydanın 8 nömrəli əlavəsinə uyğun protokollaşdırılır.

4.14. İki və daha artıq iştirakçı eyni miqdarda yekun bal topladıqda, komissiya avtonəqliyyat vasitələrinə dair göstəricilər üzrə daha çox bal toplamış iştirakçını müsabiqənin qalibi elan edir. Qeyd olunan göstəricilər üzrə toplanmış ballar bərabər olduğu təqdirdə, müsabiqənin qalibi püşkatma yolu ilə müəyyən olunur.

4.15. Müsabiqənin qalibinin müəyyən olunması üzrə komissiyanın iclasının nəticələri protokolla rəsmiləşdirilir. Protokol komissiya üzvləri tərəfindən imzalanır və sədr tərəfindən təsdiq edilir.

4.16. Müsabiqə komissiyasının protokolu əsasında müvafiq marşrut üzrə Sifarişçi müsabiqənin başa çatdığı gündən sonra 10 gün ərzində müsabiqə qalibi ilə müsabiqəyə çıxarılan avtobus marşrutuna dair bu Qaydanın 7 nömrəli əlavəsində göstərilən formada və bu Qaydanın 1.6-cı bəndinə uyğun müddətə müqavilə bağlayır və həmin daşıyıcıya marşrutun pasportunu verir.

4.17. Müsabiqə iştirakçısının təqdim etdiyi müsabiqə təklifinə baxılması və onun təklifinin qiymətləndirilməsinin nəticəsi barədə yazılı cavab almaq hüququ vardır.

«Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası»na

**2 nömrəli əlavə**

**İştirak haqqında müsabiqə ərizəsi**

Kimə______________________________________________________________________________
(sifarişçinin adı)

Kimdən____________________________________________________________________________
(iştirakçı hüquqi şəxs olduqda hüquqi şəxsin adı, fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı)

Tarix______________________________________________________________________________

Sizin________________(elanın tarixi) tarixli elanla əlaqədar______________ (müvafiq nömrə) №-li lot üzrə müsabiqədə iştirak etmək üçün_______________ iştirakçının adı) müsabiqənin şərtlərinə uyğun olaraq müsabiqədə iştirak etmək niyyətimizi bildirir və iştirak haqqında ərizə, müsabiqə təkliflərinin forması, iştirakçı haqqında məlumat, Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq arayışdan ibarət müsabiqə bildirişini təqdim edirik.

Bununla təsdiq edirik ki, bi_________________(iştirakçının adı) «Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası»nın müsabiqədə iştiraka dair bütün şərtləri ilə razıyıq.

Bu bildiriş müsabiqənin elan olunduğu gündən 60 gün müddətində qüvvədədir__________
(tarixi göstərilməli)

Hörmətlə,___________________________________________________________________________
(iştirakçının adı və soyadı, vəzifəsi)

_____________________________________________________________________________________

İmza_________________________

Qeyd. İştirak haqqında bu bildiriş bütün göstərilən arayışlarla birlikdə iştirakçılar haqqında məlumatların olduğu zərfə əlavə edilir.

**3 nömrəli əlavə**

## İxtisas məlumatlarının nümunəvi forması

1. Marşrutda işləmək üçün təklif olunan avtobusların, ehtiyatda olanlar da daxil olmaqla siyahısı:

| Sıra №-si | Avtobusun markası (növü) | Dövlət nömrəsi | Avtobusun tutumu | Avtobusun oturacaq yerlərinin sayı | Buraxılış ili |
|---|---|---|---|---|---|
| | | | | | |

2. Avtonəqliyyat vasitəsinə texniki xidmət göstərilməsi, onun saxlanılması və təmiri üçün texniki-istehsalat bazasının mövcudluğu______________________________________________

3. Avtonəqliyyat vasitəsi hər hansı səbəbdən marşrut xəttindən çıxdıqda, onun dəyişdirilməsi üçün təklif olunan tədbirlərin təsviri, həmçinin marşrut xəttindən çıxan avtonəqliyyat vasitəsinin əvəz edilməsi üçün tələb olunan vaxt barədə qeyd:
______________________________________________

4. Sürücü heyətinin peşə səviyyəsi və təcrübəsi (sürücü heyəti işçilərinin əmək kitabçalarından çıxarışlar və sürücülük hüququnu təsdiq edən vəsiqələrinin və peşə fəaliyyətinə və davranışına dair xüsusi proqram üzrə hazırlıq keçməsini təsdiq edən sənədlərin surətləri təqdim olunur):

| Sıra №-si | Təvəllüdü | Sürücünün iş stajı | | Son tibbi müayinənin keçirildiyi tarix |
|---|---|---|---|---|
| | | ümumi | sərnişin nəqliyyatı üzrə | |
| | | | | |

5. Daşıyıcı tərəfindən son üç il ərzində göstərilən sərnişin nəqliyyat xidmətlərin növləri (şəhərdaxili, şəhərlərarası, beynəlxalq marşrutlar üzrə xidmətlərin göstərilməsi və digər daşımalar):

______________________________________________

| Marşrutun növü, nömrəsi və istiqaməti | Xidmət göstərilməsinin başlanması tarixi | Xidmət göstərilməsinin başa çatması tarixi | Avtonəqliyyat vasitələrinin sayı |
|---|---|---|---|
| | | | |

Tarix: «____»_______________20___ il

İmza:____________________________

«Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası»na

**4 nömrəli əlavə**

## İştirakçılar haqqında məlumat

1. Daşıyıcının adı: ______________________________________________

(daşıyıcı hüquqi şəxs olduqda hüquqi şəxsin adı, fiziki

______________________________________________

şəxs olduqda onun soyadı, adı və atasının adı)

2. Daşıyıcının ünvanı:______________________________________________

3. Hüquqi şəxs olan Daşıyıcının dövlət qeydiyyatı haqqında hüquqi sənəd (şəhadətnamə), fiziki şəxs olan daşıyıcının sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamə və Daşıyıcının bank hesablaşma hesabının nömrəsi: __________

______________________________________________

______________________________________________

4. Daşıyıcını təmsil edən səlahiyyətli şəxs:______________________________________________

______________________________________________

(adı və soyadı, vəzifəsi)

İmza____________________________

## 1. Bakı şəhərinin inzibati ərazisində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımalarını yerinə yetirən avtobuslara dair tələblər

### 1.1. Avtobusların texniki göstəricilərinə dair tələblər

1.1.1. Bakı şəhərinin inzibati ərazisində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımalarını yerinə yetirən avtobuslar (bundan sonra - avtobus) onlar üçün irəli sürülən milli və beynəlxalq standartlara və normativlərə uyğun texniki təchizata malik olmalı və 3 (üç) qapılı olmalıdır.

1.1.2. Avtobuslar müvafiq avtonəqliyyat vasitələri üçün qüvvədə olan ekoloji standartlara uyğun mühərriklə və ya elektrik mühərriki ilə təchiz edilməlidir.

1.1.3. Avtobuslarda ayaqaltı mexanizmi nəzərə alınmadan yerdən pillənin üst səviyyəsinə qədər hündürlük 300 mm-dək, hündürlüyün 300 mm-dək düşməsinə imkan verən pillə mexanizmi olduqda isə 410 mm-dək olmalıdır.

1.1.4. Avtobuslarda salonun tam havalandırma (isitmə və sərinlətmə funksiyalı) sistemi olmalıdır.

1.1.5. Avtobuslarda sağlamlıq imkanları məhdud şəxslər üçün arabaların və uşaq arabalarının giriş və çıxışı üçün mexanizm olmalıdır.

1.1.6. Avtobuslarda Bakı Nəqliyyat Agentliyinin (bundan sonra - Agentlik) müəyyən etdiyi nağdsız ödənişin aparılmasına imkan verən avadanlıq (qurğu) olmalıdır.

1.1.7. Avtobuslarda maksimal sürət həddi müəyyən etməyə imkan verən qurğu olmalıdır.

1.1.8. Avtobuslarda onların bütün salonunu əhatə edən daxili və dörd tərəfdən xarici nəzarətə imkan verən, qeydə aldığı məlumatları ən azı 15 gün saxlaya bilən yaddaş qurğusu ilə təchiz edilmiş kameralar olmalıdır.

1.1.9. Avtobuslar onların hərəkətini izləmək üçün nəzərdə tutulmuş və Agentliyin müəyyən etdiyi mərkəzi sistemə inteqrasiya olunmuş Qlobal Mövqetəyinetmə Sistemi ("GPS") qurğusu ilə təchiz edilməlidir.

1.1.10. Avtobuslarda sərnişinlərə səsli məlumatları çatdırmaq, o cümlədən dayanacaq məntəqələrini bildirmək üçün istifadə olunan audio qurğu olmalıdır.

1.1.11. Avtobuslarda sərnişinlərlə sürücünün fiziki təmasını istisna edən şəffaf kabinə olmalıdır.

1.1.12. Avtobuslar nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış ili əsas götürülməklə 10 ildən artıq olmamalıdır.

## 1.2. Avtobusların xarici tərtibatı

1.2.1. Avtobusların xarici görünüşü təmiz və reklamsız olmalıdır.
1.2.2. Avtobusların qapılarının üzərində dekalkomaniya üsulu ilə və ya trafaretin köməyi ilə yaşıl rəngdə “Giriş “ və qırmızı rəngdə “Çıxış” işarələri yazılır.



1.2.3. Avtobuslar marşrut lövhəsi ilə təchiz olunmalıdır. Marşrut lövhəsində marşrutun nömrəsi, başlanğıc, son və əsas aralıq dayanacaq məntəqələrinin adı göstərilməlidir.
1.2.4. Ön, arxa və sağ yan tərəfdə olan marşrut lövhəsi lent şəklində informasiyanı dəyişmək imkanına malik çarxlı qurğusu olan elektron tablo və ya planşet şəklində olur, sol yan marşrut lövhəsi isə bərk materialdan hazırlanır.
1.2.5. Ön marşrut lövhəsi avtobusun konstruksiyasında nəzərdə tutulmuş xüsusi oyuqda quraşdırılır. Oyuq olmadıqda salonun içərisində standartlara müvafiq sürücünün yerinin zəruri görünüş mənzərəsinin tələblərini təmin etmək şərti ilə hərəkət istiqamətindən sağ tərəfdə yuxarıda alın şüşəsinin arxasında quraşdırılır.
1.2.6. Avtobusların ön marşrut lövhəsində sol tərəfdən marşrutun nömrəsi, başlanğıc və son dayanacaq məntəqələri göstərilir. Hərflərin hündürlüyü yazıda hərflərin miqdarından asılı olaraq maksimum ölçüdə olmalıdır. Avtobusların ön lövhəsinin ölçüsü 200x900 mm-dən, hərflərin hündürlüyü 150 mm-dən, marşrutun dayanacaq məntəqələrinin adındakı hərflərin hündürlüyü 75 mm-dən, ştrixin eni 10 mm-dən az olmamalıdır.



1.2.7. Sağ yan marşrut lövhəsi avtobusun konstruksiyasında nəzərdə tutulmuş xüsusi oyuqda quraşdırılmalıdır. Oyuq olmadıqda avtobusların yan marşrut lövhələri xüsusi qurğunun köməyi ilə salonun içərisində pəncərə üzərində aşağıdakı qaydada yerləşdirilir:

1.2.8. Sağ yan marşrut lövhəsində sol tərəfdə marşrutun nömrəsi və ardınca marşrutun başlanğıc, son və bir və ya bir neçə ən çox sərnişin olan aralıq məntəqələri göstərilməlidir. Hərflərin hündürlüyü yazıda hərflərin miqdarından asılı olaraq maksimal ölçüdə olmalıdır. Avtobusların sağ yan marşrut lövhəsinin ölçüləri 270x900 mm, rəqəmlərin hündürlüyü 220 mm-dək, marşrutun başlanğıc və son dayanacaq məntəqələrinin adındakı hərflərin hündürlüyü 75 mm-dək, ştrixin eni 15 mm-dək, aralıq dayanacaqların adlarındakı hərflərin hündürlüyü 35 mm-dək, ştrixin eni 7 mm-dək olmalıdır.



1.2.9. Marşrutun arxa lövhəsini avtobusun konstruksiyasında nəzərdə tutulmuş xüsusi oyuqda və ya arxa şüşənin içəri tərəfində xüsusi qurğularda və ya ortada quraşdırmaq olar.

1.2.10. Arxa və sol yan lövhələrdə yalnız marşrutun nömrəsi göstərilir. Arxada və sol yan tərəfdə marşrutun nömrəsi 220x350 mm-lik lövhədə, rəqəmlərin hündürlüyü 200 mm, bir rəqəmin eni 100 mm və ştrixin qalınlığı 15 mm ölçüdə olmalıdır.

1.2.11. Lövhələrdə yazılar Azərbaycan dilində olmalıdır.

1.2.12. Ön, arxa və sağ yan marşrut lövhələri (elektron tablolar) hər zaman işlək vəziyyətdə, aydın oxuna bilən və təmiz olmalıdır. Lövhələrdə məlumat yazıları günün işıqlı və ya qaranlıq vaxtında ön və arxa lövhələrdə 15 m-lik məsafədən, yan lövhələrdə 3 m-lik məsafədən aydın görünən olmalıdır.



## 1.3. Avtobusların daxili tərtibati

1.3.1. Avtobusların salonlarının daxili tərtibatı sərnişinlər üçün əyani texnoloji məlumatı əks etdirməlidir:
1.3.2. Lövhələrdəki informasiya yazılarına müvafiq simvolik təsvirlər (piktoqramlar) əlavə edilə bilər və ya həmin yazılar təsvirlərlə əvəzlənə bilər
1.3.3. Avtobus sürücüsünün fotoşəkli və fərdi kod nömrəsi olan kart avtobus salonunda ön panelin yuxarı hissəsinə və ya sürücünün kabinəsinin arakəsməsinə yerləşdirilməlidir.






1.3.4. İnformasiya lövhələri (Agentliyin loqosu, qısaldılmış adı və ya abbreviaturası və onun verdiyi eyniləşdirmə nömrəsi, gediş haqqının və cərimənin məbləği) sürücünün kabinəsinin arakəsməsinə vurulur.
1.3.5. Avtobuslarda sağlamlıq imkanları məhdud şəxslərin arabaları və uşaq arabaları üçün xüsusi işarələnmiş yerlər və müvafiq təhlükəsizlik sistemi olmalıdır.
1.3.6. Avtobuslarda sürüşməyən döşəmə örtüyü tətbiq edilməli, interyerin bütün detalları (oturacaqlar, tavan, əl tutacaqları və s.) qüsursuz, yanğın təhlükəsizliyi tələblərinə uyğun olmalıdır.
1.3.7. Uşaqlar, hamilə qadınlar və sağlamlıq imkanları məhdud şəxslər üçün yerləri göstərən lövhələr müvafiq yerlərin yanında və ya arxasında pəncərə yerinin üzərində və ya paneldə vurulur.










1.3.8. Avtobus marşrutunun sxemi avtobusun salonunun içərisində bütün sərnişinlərin yaxşı görə biləcəyi yerdə vurulmalı və növbəti dayanacağın göstərildiyi elektron lövhə şəklində olmalıdır. Marşrut sxemində bütün dayanacaq məntəqələri göstərilməlidir.
1.3.9. Avtobusun marşrutu üzrə hər bir dayanacaq və növbəti dayanacaq audio qurğu vasitəsilə elan edilməlidir.
1.3.10. İnformasiya lövhələrinin fonu və məlumat yazıları, habelə piktoqramlar sərnişinlər tərəfindən aydın oxunula və qavranıla bilən rənglərdə olmalıdır.
1.3.11. Avtobusun salonunda reklam informasiyası müvafiq qanunvericiliyin və Agentliyin müəyyən etdiyi tələblərə uyğun olmaqla xüsusi bərkidilmiş planşetlərdə yerləşdirilməli və sürücünün görünüş sahəsinə mane olmamalıdır.



**2. Bakı şəhərinin inzibati ərazisində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımalarını yerinə yetirən avtobuslarla sərnişin daşıyan daşıyıcılara dair tələblər**

2.1. Bakı şəhərində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımalarını yerinə yetirən avtobuslarla və taksi minik avtomobilləri ilə sərnişin daşımaları müvafiq icazəsi olan Azərbaycan Respublikasının vergi ödəyiciləri tərəfindən yerinə yetirilə bilər. İcazə qanunvericiliklə müəyyən olunan qaydada avtobuslar üçün "Fərqlənmə nişanı" alınmasını və eyni zamanda müntəzəm şəhərdaxili (rayondaxili) marşrut üzrə sərnişin daşınması haqqında müqavilə bağlanmasını ehtiva edir.

2.2. Daşıyıcı mülkiyyət, icarə və ya digər əşya hüququ, yaxud digər qanuni əsaslarla istifadə olunan və dövlət standartları ilə müəyyən olunan tələblərə və bu Tələblərə uyğun olan sərnişin avtonəqliyyat vasitəsinə malik olmalıdır. Avtobuslarla müntəzəm şəhərdaxili (qəsəbədaxili) marşrut üzrə sərnişin daşımalarına cəlb olunan daşıyıcının nəqliyyat vasitələrinin sayı ona həvalə olunmuş marşrutda istifadə olunacaq nəqliyyat vasitələrinin sayından 10% artıq olmalıdır.

2.3. Avtobusla sərnişin daşımalarını həyata keçirən daşıyıcı müvafiq avtonəqliyyat vasitələrinin saxlanması, onlara texniki xidmət göstərilməsi, texniki vəziyyətinə nəzarətin həyata keçirilməsi, reysqabağı texniki yoxlanılmasını, habelə sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi üçün şəraiti olan şəxsi və ya icarəyə götürülmüş istehsalat bazasına, yaxud bu xidmətlərin göstərilməsi üçün belə bazası olan fiziki və ya hüquqi şəxslərlə bağlanmış müqaviləyə malik olmalıdır.

2.4. Daşıyıcı (onun səlahiyyətli şəxsi) yola düşməzdən əvvəl sürücünü zəruri sənədlərlə ("Fərqlənmə nişanı", yol vərəqəsi, marşrut sxemi, hərəkət cədvəli, icbari sığorta şəhadətnamələri, gediş biletləri və s.) və digər məlumatlarla təmin etməlidir.

2.5. Daşıyıcı sərnişin daşımalarına təqdim etdiyi avtobusların xarici və daxili hissələrinin təmiz olmasını, avtobusların salonunun gündəlik dezinfeksiya edilməsini təmin etməlidir.

2.6. Daşıyıcı istifadəsində olan avtonəqliyyat vasitələrinin rübdə bir dəfə texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılmasını, texniki vəziyyətinin reysqabağı yoxlanılmasını, habelə qanunla müəyyən edilmiş hallarda dövlət texniki baxışından keçməsini təmin etməlidir;

2.7. Avtobusla sərnişin daşımalarını həyata keçirən daşıyıcı sərnişin daşımalarında istifadə olunan avtobusları reysdən sonra yalnız istehsalat bazasına daxil olan duracaq yerlərində saxlamalıdır.

2.8. Daşıyıcı sərnişin avtonəqliyyat vasitəsini nağdsız ödənişin aparılmasına imkan verən avadanlıq (qurğu) və ya POS-terminalla, daxili və xarici nəzarət kameraları ilə təchiz etməlidir.
2.9. Müntəzəm şəhərdaxili (qəsəbədaxili) marşrut üzrə sərnişin daşımalarına cəlb olunan daşıyıcı, sürücü qismində işə qəbul etdiyi və işdən azad etdiyi hər bir şəxs barədə müəyyən olunan qaydada məlumatları 3 gündən gec olmayaraq vahid informasiya sisteminə yerləşdirilməsi üçün bazaya ötürməlidir.
2.10. Hər bir daşıyıcı sərnişin daşımalarında istifadə olunan avtobus üçün “Fərqlənmə nişanı” alarkən Agentlikdən həmin avtobus fərdi qaydada verilən eyniləşdirmə nömrəsi, hər avtobus sürücüsü üçün isə fərdi kod nömrəsi olan kart almalıdır.
2.11. Hər bir daşıyıcı sərnişin daşımalarında istifadə olunan avtobus və taksi minik avtomobili ilə bağlı qanunvericilikdə nəzərdə tutulan icbari sığorta müqavilələrinə malik olmalı, həmin müqavilələri vaxtlı-vaxtında yeniləməlidir.
2.12. Daşıyıcı sürücü qismində işə qəbul etdiyi hər bir şəxsin Agentlik tərəfindən təşkil olunan xüsusi hazırlıq keçməsini təmin etməli və belə hazırlığı keçməklə müvafiq sənəd əldə etməyən sürücünü avtobusun idarə olunmasına buraxmamalıdır.
2.13. Daşıyıcı istifadəsində olan bütün nəqliyyat vasitələrinin reysqabağı texniki yoxlamadan keçirilməsini, onların sürücülərinin isə reysqabağı tibbi müayinədən keçirilməsini təmin etməlidir.
2.14. Daşıyıcı sərnişin daşınmasında istismar etdiyi nəqliyyat vasitələrinin istifadəsi ilə bağlı törədilmiş yol-nəqliyyat hadisələrinin, habelə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasından ibarət olan inzibati xətaların uçotunu aparmalıdır. İstifadəsində olan nəqliyyat vasitələrinin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələri barədə həmin gün, nəqliyyat vasitələrindən istifadə ilə bağlı törədilmiş inzibati xətalarla bağlı isə ayda bir dəfə Agentliyə müəyyən olunmuş məzmunda (inzibati xətanın mahiyyəti, onun törədildiyi vaxt və yer, hansı nəqliyyat vasitəsindən istifadə ilə bağlı törədilməsi, bu xətanı törədən əməkdaş barədə məlumatlar daxil edilməklə) məlumat verməlidir.
2.15. Daşıyıcının əməkdaşı olan hər hansı sürücü nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edildikdə və ya onun bu hüququ məhdudlaşdırıldıqda daşıyıcı bu barədə qərar və ya hökm qüvvəyə mindikdən sonra 3 gündən gec olmayaraq Agentliyə məlumat verməlidir.

## 3. Bakı şəhərinin inzibati ərazisində müntəzəm şəhərdaxili (qəsəbədaxili) sərnişin daşımalarını yerinə yetirən avtobusların sürücülərinə dair tələblər

3.1. Avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 23-dən az və 65-dən çox olmayan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi beş ildən az olmayan), "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 26-dan az və 65-dən çox olmayan və "D" kateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan) sürücülər buraxılırlar.

3.2. Sərnişin daşımalarında istismar edilən avtobusların sürücüləri peşə fəaliyyətinə və davranışına dair təsdiq olunmuş xüsusi proqram üzrə hazırlıq keçməli, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlar barədə zəruri biliklərə malik olmalıdırlar.

3.3. Sərnişin daşımalarında istismar edilən avtobusların sürücüləri reysqabağı tibbi müayinədən keçməli, idarə edəcəyi nəqliyyat vasitəsinin reysqabağı texniki yoxlamadan keçdiyinə əmin olmalı, zəruri sənədləri əldə etdikdən sonra reysə çıxmalıdır.

3.4. Avtobus sürücüsü marşrutun hərəkət intervalına uyğun olaraq yalnız ilk və son dayanacaq məntəqəsində sərnişinlərin minib-düşməsi üçün lazım olandan artıq müddətə dayanıb gözləyə bilər. Bütün aralıq dayanacaq məntəqələrində avtobus sürücüsü yalnız sərnişinlərin minib-düşməsi üçün zəruri olan müddətdə dayana bilər. Dayanacaq məntəqəsində olan son sərnişin mindikdən və ya orada düşən son sərnişin düşdükdən dərhal sonra sürücü avtobusun qapılarını bağlayaraq hərəkətinə davam etməlidir. Müvafiq marşrut üzrə nəzərdə tutulan dayanacaq məntəqələrindən kənarda sərnişini düşürüb mindirmək məqsədi ilə dayanmaq qadağandır.

3.5. Sərnişin daşımalarında istismar edilən avtobusların sürücüləri vahid xüsusi geyim formasında olmalıdırlar.

3.6. Sərnişin daşımalarında istismar edilən avtobusların sürücüləri sərnişinlərlə nəzakətli rəftar etməli, nəqliyyat vasitəsində, marşrut boyu yol şəraitində yaranan bütün problemlər barədə dərhal daşıyıcının səlahiyyətli şəxsinə məlumat verməli, yol-nəqliyyat hadisəsi, yanğın və başqa fövqəladə hadisələr baş verdikdə, sərnişinin səhhətində ciddi problem olduqda dərhal müvafiq xidmətlərə (polis, yanğından mühafizə xidməti, təcili tibbi yardım xidməti) məlumat verməli, sərnişinlərin təhlükəsizliyini təmin etməklə yaranmış problemi aradan qaldırmaq üçün mümkün tədbirlər görməlidir.



# Avtomobil nəqliyyatı ilə marşrut üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi haqqında

# Müqavilə

_________________                                                  _________________

(şəhər (rayon))                                                  (tarix)

Bundan sonra Sifarişçi adlandırılacaq *Bakı Nəqliyyat Agentliyinin*__________________________________________
nümayəndəsi, müsabiqə (qurumun adı)

Komissiyasının______________________ №-li «___» _____________________ tarixli
protokolu əsasında çıxış edən

_________________________________ şəxsində, bir tərəfdən və bundan sonra

(soyadı, adı, atasının adı)

Daşıyıcı adlandırılacaq ____________________________________________________________________

(Daşıyıcının adı) səlahiyyətli nümayəndəsi qismində çıxış edən

___________________________________________digər tərəfdən, aşağıda göstərilənlər haqqında bu

(soyadı, adı, atasının adı)

müqaviləni bağlayırlar.

**I. Müqavilənin predmeti**

1. Sifarişçi tərəfindən müsabiqəyə çıxarılmış marşrutda (və ya marşrutun reysində) sərnişin daşımaları üzrə nəqliyyat xidmətlərinin Daşıyıcı tərəfindən təşkili və göstərilməsi.

Marşrutun nömrəsi (adı) və ya reysin yerinə yetirilməsi vaxtı

__________________________________________________________________________________________

# II. Tərəflərin vəzifələri

2. Daşıyıcının vəzifələri aşağıdakılardır:

2.1. bu müqavilənin qüvvədə olduğu müddət ərzində keçirilmiş müsabiqənin nəticələrinə uyğun olaraq, nəqliyyat xidmətlərinin göstərilməsi üçün müəyyən edilmiş marşrutlarda müntəzəm sərnişin daşımalarım təşkil etmək və yerinə yetirmək;

2.2. «Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşımaları qaydaları»na uyğun olaraq və Sifarişçi tərəfindən təsdiq edilmiş iş rejiminə riayət etməklə, marşrut üzrə sərnişin daşımalarını yerinə yetirmək;

2.3. daşımaları yerinə yetirərkən, tutumu və yüklənmə normalarına riayət etməklə, daşıma təhlükəsizliyi, tibbi-sanitar, ekoloji və yanğın təhlükəsizliyi tələblərinə cavab verən texniki cəhətdən saz avtonəqliyyat vasitələrindən istifadə etmək;

2.4. daşımalarla əlaqədar baş verə biləcək dəyişikliklər barəsində sərnişinləri əvvəlcədən məlumatlandırmaq;

2.5. avtonəqliyyat vasitələrinə texniki xidmət göstərilməsini təmin etmək, avtobusun salonunun və çöl hissəsinin gündəlik təmizlənməsini, avtobusların reysqabağı texniki müayinədən keçirilməsini, sürücülərin reysqabağı tibbi müayinəsini təşkil etmək, həmçinin sürücülərin iş və istirahət rejiminə riayət etmələrinə nəzarət etmək;

2.6. daşımaların təşkili və həyata keçirilməsi zamanı avtobusların marşrutlar üzrə təsdiq edilmiş hərəkət sxemini, onların iş rejimini, hərəkət cədvəlini dəyişdirməmək, daşıma tariflərinin qaldırılmasına, avtonəqliyyat vasitələrinin nəzərdə tutulmuş sayının azaldılmasına və Sifarişçi ilə əvvəlcədən razılaşdırılmamış digər əsassız hərəkətlərə yol verməmək;

2.7 müəyyən edilmiş marşrutlar üzrə sərnişin daşımalarında müsabiqə təkliflərində nəzərdə tutulmuş və istismar tələblərinə uyğun olan avadanlıqlarla, marşrut sxemləri və onların göstəriciləri ilə təchiz olunmuş avtobuslardan istifadə etmək;

2.8. hər bir avtonəqliyyat vasitəsinin salonunun görünən hissəsində marşrut üzrə xidmət göstərən Daşıyıcının ünvanı və telefon nömrələri haqqında məlumatların yerləşdirilməsini təmin etmək;

2.9. vaxtlı-vaxtında avtonəqliyyat vasitələrinin texniki müayinəsinin və sürücülərin tibbi müayinəsinin keçirilməsini təmin etmək;

2.10. marşrutlar üzrə daşıyıcıların fəaliyyətinin təşkili və ona nəzarət funksiyasını yerinə yetirən Sifarişçinin səlahiyyətli qurumlarının tələblərinin yerinə yetirilməsini təmin etmək;
2.11. sərnişin daşımalarını yerinə yetirərkən, bilet və ödəniş alətinin satılmasını, o cümlədən ödəniş alətinə vəsaitin yüklənilməsi imkanını təmin etmək, sərnişinlərin biletsiz, yaxud ödəniş aləti ilə ödəniş etmədən aparılmasına yol verməmək;
2.12. avtovağzal (avtostansiya) ilə müqavilə bağlamaq (avtobuslar avtovağzallardan (avtostansiyalardan) yola düşdükdə);
2.13. marşrutlarda sərnişin avtonəqliyyat vasitəsilə xidmətlərin göstərilməsi haqqında müqavilənin bağlanması üçün bu müqavilənin surətini avtovağzala (avtostansiyaya) təqdim etmək;
2.14. Sifarişçinin razılığı olmadan müsabiqə təkliflərində qeyd olunmuş avtobusların digər avtobuslarla əvəz edilməsinə yol verməmək;
2.15. «Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşımaları qaydaları» ilə nəzərdə tutulmuş tələblərə ciddi riayət olunmasını təmin etmək;
2.16. daşımaların dayandırılması və ya ləğv edilməsi zərurəti yarandıqda, əvvəlcədən Sifarişçinin müvafiq razılığını almaq və əhaliyə daşımaların dayandırılmasına və ya ləğv edilməsinə ən azı 3 gün qalmış kütləvi informasiya vasitələri ilə məlumat vermək;
2.17. üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi barədə vaxtlı-vaxtında Sifarişçiyə hesabatlar təqdim etmək;
2.18. sərnişin daşımalarına dair müəyyən edilmiş digər tələbləri yerinə yetirmək.
3. Sifarişçinin vəzifələri aşağıdakılardır:
3.1. qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş daşınma tariflərinin düzgün tətbiq olunmasına nəzarət etmək;
3.2. daşıma şərtlərində, hərəkət marşrutlarında edilən dəyişikliklər və digər dəyişikliklər barədə Daşıyıcını məlumatlandırmaq;
3.3. küçə-yol şəbəkəsinin, xətti qurğuların, dönmə meydançalarının lazımi vəziyyətdə olmasını və münasib hərəkət rejiminin yaradılmasını təmin etmək.

## III. Tərəflərin hüquqları

4. Daşıyıcının hüquqları aşağıdakılardır:

4.1 marşrut sxeminin dəyişdirilməsi ilə əlaqədar hərəkət cədvəlinə yenidən baxılması, həmçinin, marşrutun iş rejimində dəyişiklik edilməsi və marşrutda sərnişinlərə göstərilən nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı Sifarişçiyə əsaslandırılmış təkliflər vermək;

4.2. Sifarişçidən sərnişinlərin və hərəkətin təhlükəsizliyi tələblərinə cavab verməyən küçə-yol şəbəkəsinin olduğu marşrutlarda və ya marşrutların ayrı-ayrı hissələrində lazımi təhlükəsizlik şəraitinin yaradılmasını tələb etmək.

5. Sifarişçinin hüquqları aşağıdakılardır:

5.1. Daşıyıcının işinə nəzarət etmək və nəzarətin nəticəsindən asılı olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq tədbirlər görmək;

5.2. bu müqaviləyə əsasən Daşıyıcının üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi haqqında hesabatın vaxtlı-vaxtında təqdim edilməsini ondan tələb etmək;

5.3. Daşıyıcı bu müqavilənin şərtlərini əhəmiyyətli dərəcədə və ya dəfələrlə pozduqda, müqavilənin yerinə yetirilməsindən imtina etdikdə, həmçinin Sifarişçinin razılığı olmadan müqavilə üzrə öz hüquqlarını üçüncü şəxsə verdikdə, Daşıyıcıya dəymiş ziyanı ödəmədən birtərəfli qaydada bu müqaviləni ləğv etmək.

## IV. Tərəflərin məsuliyyəti

6. Müqavilə üzrə hər bir tərəf öz öhdəliklərinin vaxtlı-vaxtında, tam həcmdə və vicdanla yerinə yetirilməməsinə görə digər tərəf qarşısında qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

7. Daşıyıcı tərəfindən dəfələrlə və ya kobud şəkillə bu Müqavilənin şərtlərinin, hərəkətin təhlükəsizliyinə dair tələblərin pozulmasına, hərəkət sxeminin, cədvəlin, iş rejiminin dəyişdirilməsinə, sərnişin və baqaj daşınması qaydalarına riayət edilməməsinə görə, həmçinin aidiyyəti dövlət orqanlarından, bələdiyyələrdən, təşkilatlardan və sərnişinlərdən əsaslandırılmış müraciətlər daxil olduqda, müqavilə Sifarişçi tərəfindən birtərəfli qaydada ləğv edilə bilər.

8. Sifarişçi marşrutlarda daşımaların məhdudlaşdırılması və ya dayandırılması səbəblərinin vaxtlı-vaxtında aradan qaldırılması üçün lazımi tədbirlərin görülməməsinə görə məsuliyyət daşıyır.

# V. Xüsusi şərtlər

9. Fəaliyyət şəraiti və şərtlərində obyektiv dəyişikliklər baş verdikdə, tərəflərdən hər hansı birinin təklifi ilə müqavilə şərtlərinə yenidən baxıla bilər. Təklif olunan dəyişikliklər barədə müvafiq qərar tərəflərin hər hansı birinin yazılı ərizəsi alındığı andan 14 gün ərzində qarşılıqlı razılıq əsasında qəbul edilir.

10. Bu müqavilə ilə razılaşdırılmış hallar istisna olmaqla, tərəflərdən birinin təklifi və ya qarşılıqlı razılıq əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada ləğv edilə bilər.

11. Daşıyıcı rentabelsiz marşrutlar üzrə sərnişin daşımalarım yerinə yetirməkdən imtina etdiyi hallarda da müqavilə Sifarişçi tərəfindən ləğv edilə bilər.

12. Daşıyıcı bu müqavilə üzrə öhdəliklərinin tam və ya qismən yerinə yetirilməsini yalnız Sifarişçinin yazılı razılığı ilə üçüncü şəxsə həvalə edə bilər. Bu halda marşrutlarda istifadə olunması üçün həmin şəxs tərəfindən təklif olunan avtobuslar müsabiqə təkliflərində göstərilən şərtlərə uyğun gəlməlidir. Əks halda Daşıyıcı bu müqavilənin şərtlərinin yerinə yetirilməməsinə görə Sifarişçi qarşısında məsuliyyət daşıyır.

13. Daşıyıcı bu və ya digər marşrutda (reysdə) sərnişin axınının kəskin artması və ya azalması zamanı Sifarişçinin razılığı ilə avtobusların hərəkət cədvəllərinə və reyslərin sayına müvəqqəti olaraq yenidən baxa bilər.

14. Bu müqaviləyə əsasən marşrutda istismar ediləcək avtobusların siyahısı müqavilənin tərkib hissəsi hesab edilir.

15. Bu müqavilə imzalandığı tarixdən qüvvəyə minir və __________il müddətinə bağlanılır.

16. Tərəflərin rekvizitləri:

**Sifarişçi**

________________________

**Daşıyıcı**

________________________

# 19 nömrəli şəhərdaxili marşrutun
# SXEMİ




Marşrut № 19 —
Dayanacaq məntəqələri —
Xəttin dövr uzunluğu — 25.8 km
Ümumi dayanacaq sayı — 33
N.Rafiyev
Ş.İ.Xətai
Babək pr
H.Əliyev pr
Y.Səfərov
M.Məhdizadə
28 May
Neftçilər pr
Bülbül pr
Sahil
Gənclik
M.K.Atatürk pr
K.Rəhimov
G.Qurbanova
Ş.İ.Xətai pr
Ə.Ağaoğlu
F.X.Xoyski
Ak.H.Əliyev
A.Nemətulla
Ə.Rəcəbli
Ə.Əliyev
N.Nərimanov



Marşrut № 19 — 25.8 km
Keşla bazarı
N.Nərimanov
Gənclik
Sahil
Ə.Əliyev
Y.V.Çəmənzəminli
A.Nemətulla
F.X.Xoyski
Ə.Rəcəbli
Təbriz
Həsənoğlu
K.Rəhimov
Ş.Qədirbəyova
Ə.Ağaoğlu
H.Əliyev pr.
İ.Xətai pr.
Babək pr.
N.Rəfiyev
Xocalı pr.
Y.Səfərov
M.Mehdizadə
28 May
Nəftçilər pr.
Bülbül pr.
M.K.Atatürk pr.
Z.Bünyadov pr.
H.Əliyev

## 19 nömrəli şəhərdaxili marşrut üzrə təyin edilmiş dayanacaq **MƏNTƏQƏLƏRİ**

A ⟶ B

| | |
|---|---|
| 1 | Əliyar Əliyev küçəsi |
| 2 | Əliyar Əliyev küç. (Hərbi hissə) |
| 3 | Yusif Vəzir Çəmənzəminli küç. (Keşlə Bazarı) |
| 4 | Yusif Vəzir Çəmənzəminli küç. |
| 5 | Ağa Nemətulla küç. (Nərimanov m/st.) |
| 6 | Təbriz küç. 159 |
| 7 | Həsənoğlu küç. (Şəhər bağları) |
| 8 | Fətəli xan Xoyski küç. 83 |
| 9 | Fətəli xan Xoyski küç. 65 |
| 10 | Mustafa Kamal Atatürk pr. 4 |
| 11 | Həsən Əliyev küç. 96 |
| 12 | Koroğlu Rəhimov küç. 29 |
| 13 | Gülarə Qədirbəyova küç. |
| 14 | Xocalı pr. 39 (Xətai m/st.) |
| 15 | Yusif Səfərov küç. 36 |
| 16 | Yusif Səfərov küç. 82 (Bakı şəhər Baş Polis İdarəsi) |
| 17 | Yusif Səfərov küç. 27 |
| 18 | Mehdi Mehdizadə küç. 23 |
| 19 | 28 May küç. (Səməd Vurğun bağı 1) |
| 20 | 28 May küç. (Park) |
| 21 | Neftçilər pr. (Dəniz kənarı park) |
| 22 | Neftçilər pr. 62 (Dəniz vağzalı) |

B ⟶ A

| | |
|---|---|
| 1 | Neftçilər pr. 62 (Dəniz vağzalı) |
| 2 | Yusif Səfərov küç. 4 |
| 3 | Xocalı pr. (Xətai m/st) |
| 4 | Şah İsmayıl Xətai pr. (Təhsil Nazirliyi) |
| 5 | Əhmədbəy Ağaoğlu küç. 28 |
| 6 | Əhməd bəy Ağaoğlu küç. (ADA Universiteti) |
| 7 | Əhmədbəy Ağaoğlu küç. |
| 8 | Fətəli xan Xoyski küç. (Gənclik m/st.) |
| 9 | Fətəli xan Xoyski küç. 84 |
| 10 | Təbriz küç. 170 |
| 11 | Fətəli xan Xoyski küç. 184 |
| 12 | Əliyar Əliyev küç. 3 |
| 13 | Əliyar Əliyev küçəsi |

# 19 nömrəli şəhərdaxil marşrutunun
# HƏRƏKƏT CƏDVƏLİ

| | | |
|---|---|---|
| **Marşrutun n.** | **19** | |
| **İşə başlama vaxtı** | **6:00** | |
| **İşin sonu** | **23:59** | |
| **Dövr vaxtı** | **1:30:00** | **90 dəq.** |
| **A-B** | **0:48** | **48 dəq.** |
| **B-A** | **0:42** | **42 dəq.** |
| **İnterval** | **0:06:00** | |
| **Avtobusların sayı** | **15** | |
| **Dövrün uzunluğu** | **25.8** | |
| **İstismar sürəti** | **17.2** | |
| **Dayanacaqların sayı** | **33** | |
| **"0" yürüşü** | | |
| **Dövr sayı** | **12** | |

| 1 | | 2 | | 3 | | 4 | | 5 | | 6 | | 7 | | 8 | | 9 | | 10 | | 11 | | 12 | | 13 | | 14 | | 15 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B | A | B |
| 6:00 | 6:48 | 6:06 | 6:54 | 6:12 | 7:00 | 6:18 | 7:06 | 6:24 | 7:12 | 6:30 | 7:18 | 6:36 | 7:24 | 6:42 | 7:30 | 6:48 | 7:36 | 6:54 | 7:42 | 7:00 | 7:48 | 7:06 | 7:54 | 7:12 | 8:00 | 7:18 | 8:06 | 7:24 | 8:12 |
| 7:30 | 8:18 | 7:36 | 8:24 | 7:42 | 8:30 | 7:48 | 8:36 | 7:54 | 8:42 | 8:00 | 8:48 | 8:06 | 8:54 | 8:12 | 9:00 | 8:18 | 9:06 | 8:24 | 9:12 | 8:30 | 9:18 | 8:36 | 9:24 | 8:42 | 9:30 | 8:48 | 9:36 | 8:54 | 9:42 |
| 9:00 | 9:48 | 9:06 | 9:54 | 9:12 | 10:00 | 9:18 | 10:06 | 9:24 | 10:12 | 9:30 | 10:18 | 9:36 | 10:24 | 9:42 | 10:30 | 9:48 | 10:36 | 9:54 | 10:42 | 10:00 | 10:48 | 10:06 | 10:54 | 10:12 | 11:00 | 10:18 | 11:06 | 10:24 | 11:12 |
| 10:30 | 11:18 | 10:36 | 11:24 | 10:42 | 11:30 | 10:48 | 11:36 | 10:54 | 11:42 | 11:00 | 11:48 | 11:06 | 11:54 | 11:12 | 12:00 | 11:18 | 12:06 | 11:24 | 12:12 | 11:30 | 12:18 | 11:36 | 12:24 | 11:42 | 12:30 | 11:48 | 12:36 | 11:54 | 12:42 |
| 12:00 | 12:48 | 12:06 | 12:54 | 12:12 | 13:00 | 12:18 | 13:06 | 12:24 | 13:12 | 12:30 | 13:18 | 12:36 | 13:24 | 12:42 | 13:30 | 12:48 | 13:36 | 12:54 | 13:42 | 13:00 | 13:48 | 13:06 | 13:54 | 13:12 | 14:00 | 13:18 | 14:06 | 13:24 | 14:12 |
| 13:30 | 14:18 | 13:36 | 14:24 | 13:42 | 14:30 | 13:48 | 14:36 | 13:54 | 14:42 | 14:00 | 14:48 | 14:06 | 14:54 | 14:12 | 15:00 | 14:18 | 15:06 | 14:24 | 15:12 | 14:30 | 15:18 | 14:36 | 15:24 | 14:42 | 15:30 | 14:48 | 15:36 | 14:54 | 15:42 |
| 15:00 | 15:48 | 15:06 | 15:54 | 15:12 | 16:00 | 15:18 | 16:06 | 15:24 | 16:12 | 15:30 | 16:18 | 15:36 | 16:24 | 15:42 | 16:30 | 15:48 | 16:36 | 15:54 | 16:42 | 16:00 | 16:48 | 16:06 | 16:54 | 16:12 | 17:00 | 16:18 | 17:06 | 16:24 | 17:12 |
| 16:30 | 17:18 | 16:36 | 17:24 | 16:42 | 17:30 | 16:48 | 17:36 | 16:54 | 17:42 | 17:00 | 17:48 | 17:06 | 17:54 | 17:12 | 18:00 | 17:18 | 18:06 | 17:24 | 18:12 | 17:30 | 18:18 | 17:36 | 18:24 | 17:42 | 18:30 | 17:48 | 18:36 | 17:54 | 18:42 |
| 18:00 | 18:48 | 18:06 | 18:54 | 18:12 | 19:00 | 18:18 | 19:06 | 18:24 | 19:12 | 18:30 | 19:18 | 18:36 | 19:24 | 18:42 | 19:30 | 18:48 | 19:36 | 18:54 | 19:42 | 19:00 | 19:48 | 19:06 | 19:54 | 19:12 | 20:00 | 19:18 | 20:06 | 19:24 | 20:12 |
| 19:30 | 20:18 | 19:36 | 20:24 | 19:42 | 20:30 | 19:48 | 20:36 | 19:54 | 20:42 | 20:00 | 20:48 | 20:06 | 20:54 | 20:12 | 21:00 | 20:18 | 21:06 | 20:24 | 21:12 | 20:30 | 21:18 | 20:36 | 21:24 | 20:42 | 21:30 | 20:48 | 21:36 | 20:54 | 21:42 |
| 21:00 | 21:48 | 21:06 | 21:54 | 21:12 | 22:00 | 21:18 | 22:06 | 21:24 | 22:12 | 21:30 | 22:18 | 21:36 | 22:24 | 21:42 | 22:30 | 21:48 | 22:36 | 21:54 | 22:42 | 22:00 | 22:48 | 22:06 | 22:54 | 22:12 | 23:00 | 22:18 | 23:06 | 22:24 | 23:12 |
| 22:30 | 23:18 | 22:36 | 23:24 | 22:42 | 23:30 | 22:48 | 23:36 | 22:54 | 23:42 | 23:00 | 23:48 | 23:06 | 23:54 | 23:12 | | 23:18 | | 23:24 | | 23:30 | | 23:36 | | 23:42 | | 23:48 | | 23:54 | |